# Təlimat

Hörmətli abituriyent, təsviri sənət üzrə qabiliyyət imtahanlarının nəticəsi ilə bağlı apellyasiya komissiyasına elektron ərizə ilə müraciət edərkən təlimatda göstərilənləri nəzərə almağınızı xahiş edirik. Apellyasiya komissiyasına müraciət etməmişdən əvvəl siz imtahan nəticələriniz, qabiliyyət imtahanlarında iştirak etmək üçün qeydiyyatdan keçdiyiniz elektron səhifədə yerləşdirilmiş "tapşırıq çəkilmiş rəsm vərəqi"nin fotosurəti, yerinə yetirilən tapşırıq üzrə qiymətləndirmə meyarları və qiymətləndirmə şkalası ilə tanış olmalısınız.

Ötən imtahanların təcrübəsi göstərir ki, apellyasiya üçün ərizə yazanların əhəmiyyətli bir hissəsi qiymətin yenidən araşdırılması ilə bağlı komissiyaya müraciət etsələr də, ünsiyyət zamanı qiymətlərindən razı olduqlarını bildirir, komissiyadan bu və ya digər səbəblə əlaqədar onlara güzəşt etməyi xahiş edirlər. Abituriyentlərin nəzərinə çatdırırıq ki, bu tip müraciətlərə baxılmır. Elektron ərizədə yalnız müvafiq QİK-lə bağlı apellyasiya müraciətinin məzmunu qeyd olunmalıdır, əks halda ərizə qəbul edilmir, həmin müraciət araşdırılmır və onun üçün apellyasiya təşkil olunmur. Apellyasiya müzakirəsində abituriyentin iştirakı mütləqdir.

Sizin müraciətinizə telefon əlaqəsi vasitəsilə baxılacaq. Bir abituriyentin müraciəti üzrə 10 dəqiqə müzakirə aparılması nəzərdə tutulmuşdur. Ayrılan vaxt bitdikdə, kənar şəxs müzakirəyə qoşulduqda və ya etik davranış qaydaları pozulduqda müzakirə prosesi dayandırılacaq. Elektron ərizəsində göstərilən telefon nömrəsinin aktiv olmasına diqqət yetirin, çünki əlaqə yaratmaq mümkün olmadıqda, ikinci dəfə apelyasiya komissiyasının yaradılması nəzərdə tutulmamışdır. Qeyd edək ki, apellyasiya prosesinin qaydalara uyğun təşkilinə dair daxili nəzarəti həyata keçirmək məqsədilə abituriyentlərin komissiya üzvləri ilə telefon əlaqəsinin səs yazısı aparılır.

**QİK 15**
**Rəsm imtahanı üzrə**
**(**gips baş**)**

| № | *Meyarlar* | *Maksi-mal bal* |
|---|---|---|
| **1** | **gips baş rəsminin verilmiş formata uyğun kağız üzərində yerləşdirilməsi** | **2** |
| a | gips baş rəsminin ölçülərinin kağızın formatına münasibətdə düzgün tapılmaması və kağız üzərində düzgün yerləşdirilməməsi | 0 |
| b | -gips baş rəsminin ölçülərinin kağızın formatına münasibətdə düzgün tapılması və kağız üzərində nisbətən düzgün yerləşdirilməsi<br>-gips baş rəsminin ölçülərinin kağızın formatına münasibətdə nisbətən düzgün tapılması və kağız üzərində düzgün yerləşdirilməsi | 1 |
| c | gips baş rəsminin ölçülərinin kağızın formatına münasibətdə düzgün tapılması və kağız üzərində düzgün yerləşdirilməsi | 2 |
| **2** | **gips baş rəsminin konstruktiv həlli** | **3** |
| a | rəsmdə konstruktiv həllin olmaması və nisbətlərin gözlənilməməsi | 0 |
| b | rəsmin konstruktiv həllinin və nisbətlərin qismən gözlənilməsi, həcmin düzgün tapılması | 1 |
| c | rəsmin konstruktiv həllinin və nisbətlərin əsasən gözlənilməsi, başın təsvir olunmuş hissə və detallarının nisbətlərinin verilmiş tapşırığa uyğun işlənilməsi | 2 |
| d | rəsmin konstruktiv həllinin və nisbətlərin modelin xarakterini tam ifadə etməsi | 3 |
| **3** | **gips baş rəsminin işıq-kölgə və plastik həlli** | **3** |
| a | rəsmdə işıq-kölgə həllinin verilməməsi, tonun əldə olunması üçün ştrixdən istifadə olunmaması, gips başın formasını verməyən nizamsız ştrixlərdən istifadə olunması | 0 |
| b | gips baş modelinin işıq-kölgə həllinin nisbətən dəqiq yerinə yetirilməsi, plastikanın qismən tapılması | 1 |
| c | gips baş modelinin işıq-kölgə həllinin formanı ifadə etməsi, plastik həllin nisbətən dəqiq yerinə yetirilməsi | 2 |
| d | rəsmdə işıq-kölgə və plastik həllin dəqiq verilməsi, ton dərəcələrinin keçidlərinin (yumşaq və ya kəskin), kölgələrin formalara uyğunluğu | 3 |
| **4** | **gips baş rəsminin tamamlanması** | **2** |
| a | gips baş rəsminin tamamlanmaması, rəsmin təsvir edilən başla oxşarlığının olmaması | 0 |
| b | gips baş rəsminin qismən tamamlanması, cizgilərin qənaətbəxş şəkildə yekunlaşdırılması, rəsmin təsvir edilən başla oxşarlığının olması | 1 |
| c | gips baş rəsminin düzgün tamamlanması, mərhələlərin doğru ardıcıllığının gözlənilməsi, rəsmin təsvir edilən başla tam oxşarlığının olması | 2 |